**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**QƏRAR**

**№ 55/08**

**Bakı şəhəri** **27 noyabr 2023-cü il**

**Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 934-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 27 may tarixli 237 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2260 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 23 avqust tarixli 710s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi **qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 18 mart tarixli 16/08 nömrəli qərarı ilə təsdiq edilmiş "Maliyyə-kredit təşkilatlarının maliyyə-iqtisadi fəaliyyətinin əsas göstəriciləri haqqında" 2-bank №-li rüblük rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "I bölmə. Aktivlər" bölməsinin 100-cü sətrə dair hissəsinə "yubiley" sözündən əvvəl "investisiya," sözü əlavə edilsin.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 17 dekabr tarixli 140/14 nömrəli qərarı ilə təsdiq edilmiş "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 12-istehsal (sənaye) №-li aylıq rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "I bölmə. Ümumi iqtisadi göstəricilər" bölməsinin 15-ci hissəsinin beşinci və altıncı abzaslarında "Milli Bank" sözləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.
3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
4. Aparatın Milli hesablar və makroiqtisadi göstəricilər statistikası və Sənaye və tikinti statistikası şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.
5. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr** **Tahir Budaqov**